# "Qərbi Azərbaycan irsi" kitabının I cildinin təqdimat mərasimi





**İsmayıllı Rayon İcra Hakimiyyəti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Qərbi Azərbaycan irsi: Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli şəkildə dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildi təqdim olunub.**

Tədbirdə Qərbi Azərbaycan İcması aparatının əməkdaşı Əhməd Rzayev, Barana rayon icmasının sədri Osman Hacıyev, Qərbi



Azərbaycan İsmayıllı rayon icmasının sədri Vidadi Mamedov, rayonda yaşayan Qərbi azərbaycanlılar, ağsaqqallar, ziyalılar, təhsil işçiləri rayon icra hakimiyyətinin məsul əməkdaşları iştirak ediblər.

İlk olaraq tədbir iştirakçıları Ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər. Ümummilli lider Heydər Əliyevin və ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra qonaqlar Qərbi Azərbaycana həsr olunmuş fotosərgi və "Qərbi Azərbaycan Təravəti" adlı məhsullarla tanış olublar.

"Qərbi Azərbaycan irsi" silsilə nəşri ilə bağlı videoçarx nümayiş olunub. Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin əməkdaşı Nəsimi Teymurov qeyd edib ki, 1948, 1953 və 1988-ci illərdə Ermənistandan yüz minlərlə azərbaycanlı deportasiya edilib. Erməni vəhşiliyinin izləri təkcə soydaşlarımızın deportasiyasında özünü göstərmir. Yürüdülən etnik təmizləmə siyasəti nəticəsində Azərbaycana məxsus yaşayış məntəqələrinin, coğrafi məkanların adları saxta erməni toponimləri ilə dəyişdirilib, tarixi abidələrimiz məhv edilib.

Çıxış edənlər Ümummilli Lider Heydər Əliyevin azərbaycanlıların Qərbi Azərbaycandan kütləvi deportasiyasına ilk hüquqi-siyasi qiymət verdiyini, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu gün Qərbi Azərbaycanla bağlı həqiqətlərin araşdırılması və dünya ictimaiyyətinə çatdırılmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu vurğulayıblar. Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli və tədqiqatçı-alim Səbuhi Hüseynovun müəllifliyi ilə hazırlanmış "Qərbi Azərbaycan irsi: Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli şəkildə dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının tarixi yaddaşın qorunmasında mühüm rol oynadığını diqqətə çatdırıblar.

Natiqlər vurğulayıblar ki, əzəli torpaqlarımızdan köçürülən bütün soydaşlarımız Prezident İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində tezliklə doğma yurdlarına qayıdacaqlar. Çünki Qərbi Azərbaycana qayıdış təməl haqqımızdır.

**M.NƏRİMANOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 31 iyul (№157).- S.7.